AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

№____

# SOSİAL, İQTİSADİ İNKİŞAF

11

YANVAR-NOYABR

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 11**
**17 dekabr 2018-ci il**

# 2018-ci İLİN YANVAR-NOYABR AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2018-ci ilin yanvar-noyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 72432,1 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,0 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 1,3 faiz, neft sektorunda isə 0,3 faiz artmışdır.

Əlavə dəyərin 45,2 faizi sənayedə, 9,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində, 6,8 faizi tikintidə, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə sahələrində, 15,1 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 8,0 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 7378,5 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2018-ci ilin yanvar-noyabr aylarında 44,0 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz, neft sektorunda isə 0,3 faiz artmışdır.

Sənaye məhsulunun 73,4 faizi mədənçıxarma sektorunda, 21,9 faizi emal sektorunda, 4,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda neft hasilatı 0,2 faiz, əmtəəlik qaz hasilatı isə 4,9 faiz artmışdır.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 29,1 dəfə, poliqrafiya məhsullarının istehsalı 2,3 dəfə, tütün məmulatlarının istehsalı 2,2 dəfə, elektrik avadanlıqlarının və mebel istehsalının hər biri 2,1 dəfə, toxuculuq sənayesi məhsullarının istehsalı 42,4 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 28,3 faiz, tikinti materiallarının istehsalı 28,2 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 16,3 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 13,1 faiz, içkilərin istehsalı 8,3 faiz, kağız və karton istehsalı 3,8 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,2 faiz artmış, kimya sənayesi məhsullarının istehsalı 1,5 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 9,7 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 10,8 faiz, əczaçılıq məhsullarının istehsalı 17,1 faiz, maşın və avadanlıqların istehsalı 24,4 faiz, hazır metal məmulatlarının istehsalı 24,9 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 66,7 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 6,9 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 3,6 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 dekabr 2018-ci il vəziyyətinə 401,8 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatı** bitkilərinin yığımı başa çatmaq üzrədir. Dekabr ayının 1-nə kimi dənli və dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 99,8 faizi, yaxud 1049,4 min hektarı biçilmiş və həmin sahələrdən 3059,9 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 13,7 faiz çox məhsul götürülmüşdür. Orta hesabla hər hektardan əldə edilmiş məhsul 29,2 sentner təşkil etmişdir. Bundan əlavə, məhsulu toplanmış 31,7 min hektar dən üçün qarğıdalı sahəsindən 226,8 min ton məhsul toplanmış, hər hektardan orta hesabla 71,5 sentner qarğıdalı dəni götürülmüşdür.

Qarğıdalı dəni nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3286,7 min ton olmuşdur.

2018-ci il dekabr ayının 1-nə kimi sahələrdən 1446,6 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 5,6 faiz çox tərəvəz, 889,4 min ton (əvvəlki ilin müvafiq dövrü səviyyəsində) kartof, 401,6 min ton (8,2 faiz az) bostan məhsulları, 998,4 min ton (8,1 faiz çox) meyvə və giləmeyvə, 154,8 min ton (6,2 faiz çox) üzüm, 868,6 ton (12,5 faiz çox) yaşıl çay yarpağı, 284,5 min ton (30,3 faiz az) şəkər çuğunduru, 220,4 min ton (13,3 faiz çox) pambıq, 24,2 min ton (19,3 faiz az) dən üçün günəbaxan, 5,7 min ton (13,3 faiz çox) tütün yığılmışdır.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-noyabr aylarında diri çəkidə ət istehsalı 3,0 faiz artaraq 463,6 min ton, süd istehsalı 2,8 faiz artaraq 1899,0 min ton, yumurta istehsalı 1,9 faiz azalaraq 1534,7 milyon ədəd və yun istehsalı 1,2 faiz azalaraq 15,7 min ton olmuşdur.

2017-ci ilin yanvar-noyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 4,6 faiz, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,7 faiz, bitkiçilik məhsullarının istehsalı isə 6,6 faiz artmışdır.

Gələn ilin məhsulu üçün 1057,2 min hektar sahədə şum qaldırılmış, 876,2 min hektar sahəyə dən üçün taxıl, ondan 577,3 min hektar sahəyə buğda, 298,7 min hektar sahəyə isə arpa səpilmişdir.

2018-ci ilin yanvar-noyabr aylarında **əsas kapitala** 12899,4 milyon manat məbləğində, yaxud 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,8 faiz az vəsait yönəldilmişdir. Bu azalma neft sektoruna yatırılmış investisiyaların azalması ilə bağlı olmuş, qeyri-neft sektoruna yönəldilən vəsaitin həcmi isə 21,2 faiz, o cümlədən qeyri-neft sənayesinə qoyulmuş investisiyalar 22,6 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 8820,9 milyon manatı və ya 68,4 faizi məhsul istehsalı obyektlərinin, 3026,8 milyon manatı (23,5 faizi) xidmət sahələri üzrə obyektlərin, 1051,7 milyon manatı (8,1 faizi) isə ümumi sahəsi 1844,3 min kvadrat metr olan yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 8144,9

milyon manatını və ya 63,1 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 9019,6 milyon manatı və ya 69,9 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

**Nəqliyyat** sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2018-ci ilin yanvar-noyabr aylarında 209,5 milyon ton yük və 1811,6 milyon sərnişin daşınmışdır. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,5 faiz, sərnişin daşınması isə 1,4 faiz artmışdır. Yüklərin 65,0 faizi avtomobil, 25,3 faizi boru kəməri, 6,0 faizi dəmir yolu, 3,6 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

Sərnişinlərin 88,2 faizi avtomobil, 11,6 faizi metro, qalanları isə hava və dəniz nəqliyyatı vasitələri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 1694,4 milyon manatlıq xidmətlərin 72,7 faizi əhali sektoruna aid olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-noyabr aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi dəyər ifadəsində 9,2 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2018-ci ilin yanvar-noyabr aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 32436,8 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 7944,9 milyon manatlıq **ödənişli xidmət** göstərilmişdir. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 2,8 faiz artmış, ticarət şəbəkəsində 16272,7 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 16164,1 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla 2018-ci ilin yanvar-oktyabr aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 26534,3 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 17281,7 milyon dollarını və ya 65,1 faizini ölkədən ixrac olunmuş məhsulların, 9252,6 milyon

dollarını (34,9 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 8029,1 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2017-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 36,4 faiz, o cümlədən ixrac 38,3 faiz, idxal 33,0 faiz artmışdır. Real ifadədə isə dövriyyə 1,3 faiz, o cümlədən ixrac 1,0 faiz, idxal 1,9 faiz artmışdır.

2018-ci ilin yanvar-oktyabr aylarında qeyri-neft məhsullarının ixracı 2017-ci ilin eyni dövrünə nisbətən faktiki qiymətlərlə 10,9 faiz, real ifadədə isə 1,7 faiz artaraq 1351,1 milyon dollar təşkil etmişdir.

2018-ci ilin yanvar-noyabr aylarında 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə **istehlak məhsullarının və xidmətlərin qiymətləri** 2,3 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri 1,9 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 2,7 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 2,6 faiz artmışdır.

2018-ci ilin yanvar-oktyabr aylarında muzdla işləyənlərin **orta aylıq nominal əməkhaqqı** 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz artaraq 540,0 manat təşkil etmişdir.

2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin yanvar-noyabr aylarında **əhalinin gəlirləri** nominal ifadədə 9,2 faiz artaraq 47368,8 milyon manata çatmışdır.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2018-ci ilin yanvar-noyabr aylarında **dövlət büdcəsinə** 20144,7 milyon manat vəsait daxil olmuş, büdcədən 19670,1 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 474,6 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2018-ci il noyabr ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 12281,3 milyon manat təşkil etmiş, onun 9779,1 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 13,8 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2018-ci il noyabr ayının 1-nə 8140,0 milyon manat təşkil etmişdir.

2018-ci ilin noyabr ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata (ilin əvvəlindən 1,70 manata), 1 Avroya –1,93 manata (2,02), 100 Rusiya rubluna –2,57 manata (2,74) bərabər olmuşdur.

2018-ci ilin yanvar-oktyabr aylarında **əhalinin sayı** 69645 nəfər və ya 0,7 faiz artaraq 2018-ci il noyabr ayının 1-i vəziyyətinə 9967730 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2018-ci ilin yanvar-noyabr ayları, faktiki | 2018-ci ilin yanvar-noyabr ayları 2017-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə | Məlumat üçün 2017-ci ilin yanvar-noyabr ayları 2016-cı ilin yanvar-noyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **72 432,1** | **101,0** | **99,8** |
| o cümlədən qeyri-neft ÜDM | 41 614,1 | 101,3 | 102,4 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **7 378,5** | **100,1** | **98,8** |
| **Sənaye məhsulu, milyon manat** | **43 969,1** | **101,4** | **96,2** |
| o cümlədən qeyri-neft sənayesi | 9 113,5 | 109,1 | 103,5 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **12 899,4** | **91,2** | **97,2** |
| o cümlədən qeyri-neft sektoruna | 7 566,2 | 121,2 | 108,5 |
| ondan qeyri-neft sənayesinə | 1 511,3 | 122,6 | 133,0 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **6 616,2** | **104,6** | **104,2** |
| o cümlədən: bitkiçilik | 3 119,5 | 106,6 | 105,9 |
| heyvandarlıq | 3 496,7 | 102,7 | 102,8 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **209,5** | **101,5** | **101,8** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **1 811,6** | **101,4** | **102,3** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 694,4** | **109,2** | **105,9** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **32 436,8** | **102,7** | **102,3** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **7 944,9** | **102,8** | **101,0** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **20 144,7** | **136,6** | **113,8** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **19 670,1** | **127,2** | **111,0** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **474,6** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **47 368,8** | **109,2** | **108,2** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **4 825,3** | **108,2** | **107,2** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2018-ci il 01 noyabr vəziyyətinə, milyon manat** | **8 140,0** | **111,8** | **98,2** |
| **Kredit qoyuluşları, 2018-ci il 01 noyabr vəziyyətinə, milyon manat** | **12 281,3** | **101,1** | **76,8** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 1 698,6 | 89,9 | 137,4 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **540,0*** | **102,8**** | **106,4***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **102,3** | **113,4** |
| **Əhalinin sayı, 2018-ci il 01 noyabr vəziyyətinə, min nəfər** | **9 967,7** | **100,9** | **100,9** |
| **Xarici ticarət dövriyyəsi[1], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **26 534,3*** | **136,4**** | **109,7***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **101,3**** | **88,3***** |
| o cümlədən: **ixrac** | | | |
| faktiki qiymətlərlə | 17 281,7* | 138,3** | 115,4*** |
| müqayisəli qiymətlərlə | x | 101,0** | 91,9*** |
| ondan **qeyri-neft ixracı** | | | |
| faktiki qiymətlərlə | 1 351,1* | 110,9** | 125,1*** |
| müqayisəli qiymətlərlə | x | 101,7** | 122,8*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 9 252,6* | 133,0** | 100,7*** |
| müqayisəli qiymətlərlə | x | 101,9** | 82,7*** |

**Qeyd:**

* 2018-ci ilin yanvar-oktyabr ayları.

** 2018-ci ilin yanvar-oktyabr ayları 2017-ci ilin yanvar-oktyabr aylarına nisbətən.

*** 2017-ci ilin yanvar-oktyabr ayları 2016-cı ilin yanvar-oktyabr aylarına nisbətən.

[1] Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

# Ümumi Daxili Məhsul

2018-ci ilin yanvar-noyabr aylarında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,0 faiz artaraq 72432,1 milyon manata çatmışdır.

İqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 1,3 faiz, neft sektorunda isə 0,3 faiz artmışdır.

ÜDM-in 45,2 faizi sənayedə, 9,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində, 6,8 faizi tikintidə, 6,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,5 faizi informasiya və rabitə sahələrində, 15,1 faizi digər sahələrdə istehsal edilmiş, məhsula və idxala xalis vergilər isə ÜDM-in 8,0 faizini təşkil etmişdir.

Bu dövrdə informasiya və rabitə sahələrində əlavə dəyər istehsalı 9,2 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 7,9 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 7,6 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 4,6 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində 2,7 faiz, sənayedə 1,3 faiz, digər xidmət sahələrində 0,7 faiz artmış, tikintidə isə 13,1 faiz azalmışdır.

Əhalinin hər nəfərinə düşən ÜDM 7378,5 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-noyabr | | 2018-ci ilin yanvar-noyabr ayları 2017-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | **2018** | **2017*** | |
| **Ümumi Daxili Məhsul** | **72432,1** | **62922,9** | **101,0** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 3933,3 | 3692,0 | 104,6 |
| Sənaye | 32759,8 | 25439,7 | 101,3 |
| o cümlədən: mədənçıxarma sənayesi | 28636,4 | 21745,2 | 100,2 |
| emal sənayesi | 3332,1 | 2982,1 | 107,5 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 677,5 | 605,8 | 106,9 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 113,8 | 106,6 | 103,6 |
| Tikinti | 4918,4 | 5472,2 | 86,9 |
| Ticarət və nəqliyyat vasitələrinin təmiri | 6734,3 | 6407,9 | 102,7 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4583,0 | 4287,4 | 107,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1652,4 | 1498,2 | 107,6 |
| İnformasiya və rabitə | 1118,3 | 1026,2 | 109,2 |
| Digər sahələr | 10971,8 | 10380,0 | 100,7 |
| **Məhsula və idxala xalis vergilər** | **5760,8** | **4719,3** | **100,6** |
| **ÜDM-in deflyatoru** | **114,0** | **x** | **x** |

*) 2017-ci ilin aylıq göstəriciləri ilin yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

## Neft və qeyri-neft sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-noyabr | | 2018-ci ilin yanvar-noyabr ayları 2017-ci ilin yanvar-noyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| | 2018 | 2017* | |
| **Ümumi Daxili Məhsul** | **72432,1** | **62922,9** | **101,0** |
| o cümlədən: neft sektoru | 30818,0 | 23663,2 | 100,3 |
| qeyri-neft sektoru | 41614,1 | 39259,7 | 101,3 |

*) 2017-ci ilin aylıq göstəriciləri ilin yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



# Sənaye

2018-ci ilin yanvar-noyabr aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 1,4 faiz artaraq 44,0 milyard manat təşkil etmişdir. Sənayenin qeyri-neft sektorunda istehsal əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 9,1 faiz, neft sektorunda isə 0,3 faiz artmışdır. Sənaye məhsulunun 73,4 faizi mədənçıxarma, 21,9 faizi emal, 4,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 82,9 faiz olmuşdur. Ümumi istehsalın 92,4 faizi sənaye məhsullarının istehsalı, 7,6 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2017-ci il** | | |
| Yanvar | 101,2 | 101,0 |
| Fevral | 90,0 | 96,3 |
| Mart | 102,9 | 93,2 |
| Aprel | 104,5 | 94,0 |
| May | 108,6 | 94,5 |
| İyun | 97,8 | 94,5 |
| İyul | 98,5 | 94,6 |
| Avqust | 89,0 | 94,0 |
| Sentyabr | 101,5 | 94,7 |
| Oktyabr | 102,2 | 95,4 |
| Noyabr | 103,2 | 96,2 |
| Dekabr | 102,6 | 96,6 |
| **2018-ci il** | | |
| Yanvar | 102,6 | 101,5 |
| Fevral | 89,9 | 101,4 |
| Mart | 104,9 | 102,0 |
| Aprel | 98,8 | 100,9 |
| May | 110,8 | 100,7 |
| İyun | 100,6 | 101,0 |

…ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| İyul | 95,4 | 100,7 |
| Avqust | 99,5 | 101,9 |
| Sentyabr | 94,1 | 102,0 |
| Oktyabr | 95,3 | 101,5 |
| Noyabr | 106,9 | 101,4 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 dekabr 2018-ci il vəziyyətinə 401,8 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 54,3 faizi Bakı, 7,5 faizi Sumqayıt, 5,1 faizi Gəncə, 3,6 faizi Şirvan, 0,2 faizi Mingəçevir şəhərlərinin, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 50,2 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 32,3 milyard manat olmaqla əvvəlki ilin yanvar-noyabr aylarına nisbətən 0,2 faiz artmışdır.

Sahənin əsas məhsulu olan xam neftin əmtəəlik hasilatı 35,4 milyon ton, əmtəəlik təbii qazın hasilatı isə 17,4 milyard kub metr təşkil etmişdir. Neft hasilatı 0,2 faiz, qaz hasilatı isə 4,9 faiz artmışdır.

Cədvəl 5

## Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 35 467,2 | 100,1 | 263,3 |
| ondan əmtəəlik | 35 420,0 | 100,2 | 263,3 |
| Təbii qaz, milyon kub metr | 27 746,0 | 106,5 | - |
| ondan əmtəəlik | 17 417,0 | 104,9 | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Dəmir filizi, min ton | - | - | 38,5 |
| Mis filizləri və konsentratları, ton | 1 458,4 | 74,6 | 187,7 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 6 123,9 | 98,2 | 121,6 |
| o cümlədən : qızıl | 3 951,5 | 69,7 | 88,9 |
| gümüş | 2 172,4 | 3,8 d. | 32,7 |
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| Tikinti qumu, min ton | 884,9 | 122,1 | 8,5 |
| İnşaat üçün əhəng daşı, min ton | 205,7 | 114,9 | - |
| Çınqıl, qırmadaş, xırda çay daşı, min ton | 1 355,7 | 128,2 | 16,3 |
| Duz, ton | 60 778,7 | 98,5 | 55,0 |
| ondan əmtəəlik | 3 832,7 | 89,2 | 55,0 |
| Bentonit, min ton | 176,0 | 88,1 | 121,2 |
| ondan əmtəəlik | 165,2 | 86,4 | 121,2 |
| Gips və anhidrit, ton | 261 133,7 | 12,2 d. | 52 079,0 |

Qrafik 2

## Neft və qaz hasilatının aylar üzrə dinamikası




## Emal sənayesi

Emal sənayesində yanvar-noyabr aylarında 9 632,0 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 6

## Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2017-ci il** | | |
| Yanvar | 107,2 | 118,4 |
| Yanvar-fevral | 101,3 | 106,1 |
| Yanvar-mart | 96,5 | 101,7 |
| Yanvar-aprel | 98,6 | 102,8 |
| Yanvar-may | 99,0 | 102,3 |
| Yanvar-iyun | 98,0 | 101,4 |
| Yanvar-iyul | 97,4 | 100,7 |
| Yanvar-avqust | 97,6 | 100,9 |
| Yanvar-sentyabr | 95,6 | 99,1 |
| Yanvar-oktyabr | 96,0 | 99,9 |
| Yanvar-noyabr | 96,7 | 100,4 |
| Yanvar-dekabr | 98,0 | 101,7 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2018-ci il** | | |
| Yanvar | 101,7 | 102,7 |
| Yanvar-fevral | 99,6 | 99,9 |
| Yanvar-mart | 104,3 | 106,9 |
| Yanvar-aprel | 105,3 | 108,0 |
| Yanvar-may | 106,1 | 109,0 |
| Yanvar-iyun | 108,6 | 111,8 |
| Yanvar-iyul | 109,4 | 113,7 |
| Yanvar-avqust | 111,9 | 114,2 |
| Yanvar-sentyabr | 112,1 | 113,5 |
| Yanvar-oktyabr | 110,1 | 112,5 |
| Yanvar-noyabr | 107,6 | 110,6 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 7

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir, min manat* | 2017-ci ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **9 632 030,4** | **107,6** |
| o cümlədən: qida məhsullarının istehsalı | 3 037 382,6 | 101,0 |
| içki istehsalı | 246 494,2 | 108,3 |
| tütün məmulatlarının istehsalı | 38 600,0 | 223,3 |
| toxuculuq sənayesi | 198 514,7 | 142,4 |
| geyim istehsalı | 74 454,5 | 97,9 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 22 207,4 | 128,3 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 10 295,1 | 113,1 |
| kağız və karton istehsalı | 64 535,0 | 103,8 |
| poliqrafiya məhsullarının istehsalı | 178 308,5 | 227,3 |
| neft məhsullarının istehsalı | 2 825 392,2 | 102,0 |
| kimya sənayesi | 479 577,0 | 98,5 |
| əczaçılıq məhsullarının istehsalı | 1 545,3 | 82,9 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 224 719,4 | 106,2 |
| tikinti materiallarının istehsalı | 578 192,2 | 128,2 |
| metallurgiya sənayesi | 490 739,1 | 116,3 |
| hazır metal məmulatlarının istehsalı | 170 776,2 | 75,1 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 78 774,9 | 90,3 |
| elektrik avadanlıqlarının istehsalı | 171 517,3 | 212,2 |
| maşın və avadanlıqların istehsalı | 141 699,6 | 75,6 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 101 015,2 | 29,1 d. |
| sair nəqliyyat vasitələrinin istehsalı | 7 017,5 | 33,3 |
| mebellərin istehsalı | 96 510,2 | 212,6 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 19 443,4 | 109,8 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 374 318,9 | 89,2 |

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

Əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə tütün məmulatlarının istehsalında 2,2 dəfə, içki istehsalında 8,3 faiz, qida məhsullarının istehsalında isə 1,0 faiz artım müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından brendi (konyak) istehsalı 3,4 dəfə, üzüm şərabının istehsalı 56,5 faiz, alkoqolsuz içkilərin istehsalı 23,2 faiz, kolbasa məmulatlarının istehsalı 5,3 faiz, cem və marmeladların istehsalı 2,0 faiz artmış, bununla yanaşı qənd və şəkər tozu istehsalı 7,7 faiz, duru bitki yağlarının istehsalı 9,7 faiz azalmışdır.

Cədvəl 8

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2017-ci il** | | | |
| Yanvar | 96,5 | 132,4 | 56,1 |
| Yanvar-fevral | 101,0 | 159,8 | 36,5 |
| Yanvar-mart | 103,4 | 137,1 | 41,9 |
| Yanvar-aprel | 103,7 | 139,4 | 51,0 |
| Yanvar-may | 103,1 | 137,4 | 61,4 |
| Yanvar-iyun | 102,7 | 130,6 | 68,6 |
| Yanvar-iyul | 102,3 | 130,0 | 76,4 |
| Yanvar-avqust | 101,1 | 128,6 | 84,1 |
| Yanvar-sentyabr | 100,7 | 126,9 | 87,2 |
| Yanvar-oktyabr | 100,9 | 124,7 | 93,4 |
| Yanvar-noyabr | 100,6 | 122,8 | 106,0 |
| Yanvar-dekabr | 101,0 | 117,2 | 107,9 |
| **2018-ci il** | | | |
| Yanvar | 99,0 | 75,2 | 2,8 d. |
| Yanvar-fevral | 93,3 | 81,0 | 3,4 d. |
| Yanvar-mart | 92,8 | 96,9 | 2,8 d. |
| Yanvar-aprel | 94,9 | 96,4 | 2,7 d. |
| Yanvar-may | 94,9 | 95,5 | 2,6 d. |
| Yanvar-iyun | 96,9 | 105,6 | 3,4 d. |
| Yanvar-iyul | 97,6 | 109,0 | 2,9 d. |
| Yanvar-avqust | 99,0 | 109,3 | 2,6 d. |
| Yanvar-sentyabr | 99,4 | 111,4 | 2,5 d. |
| Yanvar-oktyabr | 100,0 | 110,6 | 2,5 d. |
| Yanvar-noyabr | 101,0 | 108,3 | 2,2 d. |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 9

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin istehsalı**

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Ət (quş əti daxil olmaqla), min ton | 285,7 | 103,0 | - |
| Kolbasa məmulatları, ton | 5 142,2 | 105,3 | 3,5 |
| Üzlü süd, min ton | 834,8 | 101,8 | - |
| Qaymaq və xama, ton | 4 355,4 | 100,2 | - |
| Pendir və kəsmik, ton | 45 818,0 | 96,6 | 59,1 |
| Kərə yağı, ton | 21 569,6 | 93,6 | 2,7 |
| Cem və marmeladlar, ton | 69 898,6 | 102,0 | 4 374,1 |
| Duru bitki yağları, ton | 45 436,8 | 90,3 | 706,7 |
| Marqarin, ton | 39 864,8 | 91,2 | 784,3 |

…ardı

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| İnsanın qidalanması üçün yararlı olan duz, min ton | 58,7 | 99,7 | 0,2 |
| Qənd və şəkər tozu, min ton | 189,9 | 92,3 | 0,5 |
| Çörək və çörək-bulka məmulatları (əmtəəlik), min ton | 1 132,1 | 101,0 | - |
| **İçki məhsulları** | | | |
| Şampan şərabı, min dkl | 1,2 | 150,0 | 1,4 |
| Araq, min dkl | 676,4 | 141,1 | 73,1 |
| Brendi (konyak), min dkl | 18,0 | 3,4 d. | 20,2 |
| Üzüm şərabı, min dkl | 1 448,1 | 156,5 | 1 175,0 |
| Pivə, min dkl | 4 503,1 | 112,2 | 232,2 |
| Likörlər, min dkl | 148,2 | 170,9 | 42,8 |
| Alkoqolsuz içkilər, min dkl | 21 089,1 | 123,2 | 338,4 |
| **Tütün məmulatları** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 2 928,1 | 99,3 | 136,0 |
| Papiros və siqaretlər, milyon ədəd | 3 386,8 | 3,3 d. | 1,1 |

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 295,2 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə toxuculuq sənayesində 42,4 faiz, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 28,3 faiz artım, geyim istehsalında isə 2,1 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 10

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2017-ci il** | | | |
| Yanvar | 2,6 d. | 3,0 d. | 75,3 |
| Yanvar-fevral | 2,6 d. | 148,5 | 63,8 |
| Yanvar-mart | 2,4 d. | 2,0 d. | 46,0 |
| Yanvar-aprel | 2,2 d. | 173,6 | 39,6 |
| Yanvar-may | 2,2 d. | 162,1 | 41,2 |
| Yanvar-iyun | 2,1 d. | 157,1 | 44,2 |
| Yanvar-iyul | 198,5 | 149,0 | 61,7 |
| Yanvar-avqust | 182,1 | 143,5 | 65,2 |
| Yanvar-sentyabr | 173,8 | 137,9 | 78,7 |
| Yanvar-oktyabr | 168,4 | 136,2 | 90,1 |
| Yanvar-noyabr | 147,8 | 131,3 | 97,2 |
| Yanvar-dekabr | 144,7 | 115,5 | 95,3 |
| **2018-ci il** | | | |
| Yanvar | 173,9 | 47,7 | 3,2 d. |
| Yanvar-fevral | 165,8 | 51,7 | 4,7 d. |
| Yanvar-mart | 153,2 | 74,8 | 185,1 |
| Yanvar-aprel | 162,6 | 112,0 | 191,4 |
| Yanvar-may | 161,4 | 111,4 | 195,6 |
| Yanvar-iyun | 164,1 | 110,3 | 156,9 |
| Yanvar-iyul | 164,2 | 100,7 | 154,4 |
| Yanvar-avqust | 163,0 | 100,5 | 154,0 |
| Yanvar-sentyabr | 153,3 | 101,6 | 142,7 |
| Yanvar-oktyabr | 148,8 | 100,0 | 135,6 |
| Yanvar-noyabr | 142,4 | 97,9 | 128,3 |

Cədvəl 11

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq lifi, ton | 49 956,8 | 175,9 | 13 531,2 |
| Hazır pambıq parçalar, min kv.m | 16 263,4 | 108,3 | 1 213,5 |
| Pambıq iplik, ton | 22 005,1 | 142,4 | 535,6 |
| ondan əmtəəlik | 21 320,3 | 137,9 | 535,6 |
| Pambıq yataq ağları, min ədəd | 492,1 | 161,7 | 4,5 |
| Xalça və xalça məmulatları, kv.m | 1 617,3 | 2,9 d. | 1 810,5 |
| **Geyim istehsalı** | | | |
| Üst trikotaj, min ədəd | 153,7 | 56,4 | 1,2 |
| Alt trikotaj, min ədəd | 344,9 | 64,0 | 38,8 |
| Corab məmulatları, min cüt | 2 209,1 | 107,0 | 5,0 |
| Kişilər üçün istehsalat və peşə komplektləri, gödəkçələr və bleyzerləri, min ədəd | 547,6 | 5,7 d. | 7,2 |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Dəri, min kv.m | 52,7 | 172,8 | 140,0 |
| Aşılanmış xəz dərilər, min kv.m | 113,4 | 94,9 | 27,4 |
| Ayaqqabı-cəmi, min cüt | 216,6 | 116,3 | 86,5 |

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 2 825,4 milyon manat olmaqla əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə 2,0 faiz artmışdır. Neft məhsullarından avtomobil benzininin istehsalı 2,7 faiz, yanacaq mazutunun istehsalı 60,7 faiz azalmış, ağ neftin, dizel yanacağının, sürtkü yağlarının, neft bitumunun və neft koksunun istehsalı artmışdır.

Cədvəl 12

**Neft məhsullarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 1 068,5 | 97,3 | 58,5 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 179,4 | 108,2 | - |
| Ağ neft, min ton | 554,1 | 102,8 | 43,1 |
| Dizel yanacağı, min ton | 1 755,2 | 102,1 | 35,3 |
| Yanacaq mazutu, min ton | 92,7 | 39,3 | 15,8 |
| Sürtkü yağları, min ton | 150,6 | 4,5 d. | 26,8 |
| Neft bitumu, min ton | 272,8 | 130,7 | 13,2 |
| Neft koksu, min ton | 223,1 | 113,0 | 7,3 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 705,8 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı rezin və plastik kütlə məmulatlarının istehsalında 6,2 faiz artmış, kimya sənayesində 1,5 faiz, əczaçılıq məhsullarının istehsalında isə 17,1 faiz azalmışdır.

Əsas kimya məhsullarından yod istehsalı 7,3 faiz, izopropil spirti istehsalı 28,2 faiz, metanol istehsalı 37,2 faiz azalmış, oksigen istehsalı 48,9 faiz, lak-boya məmulatlarının istehsalı 21,8 faiz, propilen istehsalı 13,1 faiz, etilen istehsalı 4,1 faiz, azot istehsalı 4,0 faiz artmışdır. Rezin və plastik kütlə məmulatlarından bərk polipropilen boruların istehsalı 68,2 faiz, butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatların istehsalı 58,7 faiz, məsaməli polistirol lövhələr və zolaqların istehsalı isə 38,5 faiz artmışdır.

Cədvəl 13

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2017-ci il** | | | |
| Yanvar | 93,3 | 111,7 | 2,4 d. |
| Yanvar-fevral | 93,3 | 158,9 | 182,3 |
| Yanvar-mart | 95,7 | 2,4 d. | 142,4 |
| Yanvar-aprel | 111,7 | 2,3 d. | 160,6 |
| Yanvar-may | 122,0 | 2,0 d. | 157,0 |
| Yanvar-iyun | 122,4 | 2,3 d. | 148,5 |
| Yanvar-iyul | 120,3 | 2,2 d. | 157,3 |
| Yanvar-avqust | 122,2 | 2,0 d. | 175,0 |
| Yanvar-sentyabr | 118,1 | 2,4 d. | 185,2 |
| Yanvar-oktyabr | 120,7 | 2,4 d. | 189,1 |
| Yanvar-noyabr | 120,8 | 2,5 d. | 191,4 |
| Yanvar-dekabr | 116,5 | 2,5 d. | 171,7 |
| **2018-ci il** | | | |
| Yanvar | 98,7 | 3,1 d. | 71,7 |
| Yanvar-fevral | 106,3 | 2,0 d. | 55,1 |
| Yanvar-mart | 106,2 | 78,1 | 59,5 |
| Yanvar-aprel | 101,6 | 78,0 | 66,9 |
| Yanvar-may | 99,2 | 103,7 | 71,7 |
| Yanvar-iyun | 100,4 | 100,3 | 80,7 |
| Yanvar-iyul | 98,7 | 101,2 | 88,0 |
| Yanvar-avqust | 101,0 | 120,2 | 90,4 |
| Yanvar-sentyabr | 107,8 | 96,4 | 97,2 |
| Yanvar-oktyabr | 103,8 | 87,1 | 100,1 |
| Yanvar-noyabr | 98,5 | 82,9 | 106,2 |

Qrafik 5

**Kimya sənayesi məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 14

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Azot, min kub m | 21 990,8 | 104,0 | 81,5 |
| ondan əmtəəlik | 2 033,6 | 159,0 | 81,5 |
| Yod, ton | 168,2 | 92,7 | 9,2 |
| Oksigen, min kub m | 4 438,8 | 148,9 | 59,7 |
| Propilen, min ton | 48,6 | 113,1 | 4,0 |
| ondan əmtəəlik | 41,6 | 124,0 | 4,0 |
| Polietilen, min ton | 86,3 | 104,2 | 2,4 |
| Etilen, min ton | 88,9 | 104,1 | - |
| İzopropil spirti (mütləq), ton | 7 284,9 | 71,8 | 648,7 |
| Metanol (metil spirti), min ton | 166,9 | 62,8 | 19,4 |
| Lak-boya məmulatları, ton | 12 964,1 | 121,8 | 191,4 |

…ardı

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sair üzvi kompozisiya həllediciləri və durulaşdırıcıları, ton | 15 935,5 | 147,8 | 43,5 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 9 527,5 | 117,5 | 3 950,1 |
| Bərk polipropilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 3 084,8 | 168,2 | 186,0 |
| Liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqlar, ton | 4 723,8 | 51,3 | 232,0 |
| Məsaməli polistirol lövhələr və zolaqlar, ton | 1 155,7 | 138,5 | 25,2 |
| Butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 5 104,2 | 158,7 | 3 970,2 |
| Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton | 367,4 | 71,0 | 56,7 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat | 44,8 | 64,8 | 53,8 |
| Tərkibində qarışıq və ya xalis məhsullar olan, digər qruplara daxil edilməyən, pərakəndə satış üçün qablaşdırılan sair dərmanlar, min manat | 496,9 | 94,7 | 190,2 |

**Tikinti materiallarının istehsalı** sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilmiş məhsulun ümumi dəyəri 28,2 faiz artaraq 578,2 milyon manat təşkil etmişdir. Hörmə üçün hazır beton qarışığının istehsalı 90,9 faiz, sementin istehsalı 21,1 faiz, tikinti kərpicinin istehsalı 7,4 faiz artmış, tikinti əhənginin istehsalı 1,1 faiz, betondan yığma tikinti konstruksiyalarının istehsalı 29,6 faiz, tikinti gipsinin istehsalı 50,9 faiz azalmışdır.

Qrafik 6

## Tikinti materiallarının istehsalının dinamikası

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

## Tikinti materiallarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sement, min ton | 3 218,5 | 121,1 | 124,4 |
| Şüşə lifindən iplik, ton | 239,8 | 30,9 | - |
| Tikinti gipsi, min ton | 40,8 | 49,1 | 0,8 |
| ondan əmtəəlik | 9,6 | 31,1 | 0,8 |
| Tikinti əhəngi, min ton | 27,3 | 98,9 | 0,04 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton | 73,3 | 79,2 | 5,6 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 97,7 | 70,4 | 4,7 |
| Asfalt, min ton | 270,7 | 2,0 d. | - |
| Tikinti kərpici, min kub metr | 286,4 | 107,4 | 19,3 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 1 312,7 | 190,9 | - |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 30 384,5 | 137,3 | 384,0 |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində yanvar-noyabr aylarında 661,5 milyon manatlıq məhsul istehsal olunmuş, metallurgiya sənayesində 16,3 faiz artım, hazır metal məmulatlarının istehsalı sahəsində 24,9 faiz azalma müşahidə olunmuşdur. Yanvar-noyabr ayları ərzində sahə üzrə 280,1 min ton (28,9 faiz çox) armatur, 698,7 ton (8,1 faiz çox) alüminium çubuqlar, millər və profillər, 1 326,3 ton (9,8 dəfə çox) mayelər üçün çənlər, sisternlər istehsal edilmişdir.

Cədvəl 16

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2017-ci il** | | |
| Yanvar | 135,2 | 127,3 |
| Yanvar-fevral | 123,0 | 89,0 |
| Yanvar-mart | 103,8 | 79,0 |
| Yanvar-aprel | 102,4 | 70,5 |
| Yanvar-may | 93,5 | 65,8 |
| Yanvar-iyun | 90,5 | 69,7 |
| Yanvar-iyul | 90,6 | 69,2 |
| Yanvar-avqust | 91,5 | 68,2 |
| Yanvar-sentyabr | 86,3 | 73,2 |
| Yanvar-oktyabr | 86,9 | 84,0 |
| Yanvar-noyabr | 90,1 | 85,1 |
| Yanvar-dekabr | 91,3 | 88,0 |
| **2018-ci il** | | |
| Yanvar | 96,2 | 181,5 |
| Yanvar-fevral | 90,0 | 167,0 |
| Yanvar-mart | 111,5 | 246,4 |
| Yanvar-aprel | 114,2 | 219,9 |
| Yanvar-may | 118,4 | 204,1 |
| Yanvar-iyun | 115,0 | 164,1 |
| Yanvar-iyul | 114,3 | 128,2 |
| Yanvar-avqust | 113,4 | 118,2 |
| Yanvar-sentyabr | 115,7 | 107,4 |
| Yanvar-oktyabr | 113,3 | 98,8 |
| Yanvar-noyabr | 116,3 | 75,1 |

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Çuqun tökmə, ton | 11,2 | 3,5 | 89,2 |
| ondan əmtəəlik | - | - | 89,2 |
| Polad tökmə, min ton | 359,1 | 100,3 | 2,1 |
| Armatur, min ton | 280,1 | 128,9 | 5,5 |
| ondan əmtəəlik | 265,0 | 124,4 | 5,5 |
| Polad borular, min ton | 42,6 | 102,7 | - |
| Emal edilməmiş alüminium ərintiləri, ilkin şəkildə, min ton | 38,9 | 157,8 | 9,6 |
| Alüminium çubuqlar, millər və profillər, ton | 698,7 | 108,1 | 158,5 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Qara metallardan qeyri-elektrik radiatorlar və onların hissələri, ton | 35,3 | 28,6 | - |
| Mayelər üçün çənlər, sisternlər, ton | 1 326,3 | 9,8 d. | 40,0 |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 8 030,2 | 73,0 | - |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 250,3 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə kompüter, elektron və optik məhsulların istehsalı 9,7 faiz azalmış, elektrik avadanlıqlarının istehsalı isə 2,1 dəfə artmışdır. Dövr ərzində əvvəlki ilin yanvar-noyabr ayları ilə müqayisədə 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqillərinin istehsalı 88,8 faiz artmış, məişət soyuducularının istehsalı 37,6 faiz, güc transformatorlarının istehsalı 57,3 faiz azalmışdır.

Cədvəl 18

## Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompüter, elektron və optik məhsulların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2017-ci il** | | |
| Yanvar | 3,3 d. | 4,6 d. |
| Yanvar-fevral | 182,8 | 3,4 d. |
| Yanvar-mart | 2,2 d. | 2,9 d. |
| Yanvar-aprel | 2,1 d. | 2,4 d. |
| Yanvar-may | 172,1 | 2,1 d. |
| Yanvar-iyun | 175,7 | 184,2 |
| Yanvar-iyul | 157,6 | 169,0 |
| Yanvar-avqust | 142,9 | 163,8 |
| Yanvar-sentyabr | 135,0 | 165,7 |
| Yanvar-oktyabr | 130,5 | 159,9 |
| Yanvar-noyabr | 128,5 | 150,1 |
| Yanvar-dekabr | 125,5 | 134,6 |
| **2018-ci il** | | |
| Yanvar | 76,8 | 77,7 |
| Yanvar-fevral | 93,9 | 143,4 |
| Yanvar-mart | 81,7 | 137,4 |
| Yanvar-aprel | 93,9 | 198,5 |
| Yanvar-may | 94,3 | 196,2 |
| Yanvar-iyun | 89,4 | 184,1 |
| Yanvar-iyul | 89,3 | 303,8 |
| Yanvar-avqust | 90,4 | 298,9 |
| Yanvar-sentyabr | 89,9 | 252,3 |
| Yanvar-oktyabr | 95,3 | 244,7 |
| Yanvar-noyabr | 90,3 | 212,2 |

Cədvəl 19

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2018-ci ilin yanvar-noyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.12.2018-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Maye və qazların məsrəfinin və ya səviyyəsinin ölçülməsi üçün cihazlar, ədəd | 151 540 | 84,6 | 50 |
| Qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatları, ədəd | 9 900 | 108,8 | 209 |
| Elektrik paylayıcı və nəzarət cihazlarının hissələri, ədəd | 111 446 | 2,1 d. | - |
| 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqilləri, ton | 2 511,0 | 59,8 | 3 375,7 |
| Güc transformatorları, ədəd | 538 | 42,7 | - |
| 1 kV-dan çox gərginlik üçün elektrik cərəyanı naqilləri, ton | 982,1 | 188,8 | 4 119,9 |
| Televizorlar, ədəd | - | - | 4 309 |
| Məişət soyuducuları, ədəd | 1 202 | 62,4 | 881 |

**Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı** sahələrində 249,7 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil istehsalı 29,1 dəfə artmış, maşın və avadanlıqların istehsalı 24,4 faiz, sair nəqliyyat vasitələrinin istehsalı isə 66,7 faiz azalmışdır. Dövr ərzində məişət kondisionerlərinin istehsalı olmamış, bununla yanaşı 1 220 ədəd traktor, 794 ədəd minik avtomobili istehsal olunmuş, mancanaq dəzgahlarının istehsalı 2,2 dəfə, ştanqlı quyu nasoslarının istehsalı 3,9 faiz artmışdır.

Cədvəl 20

## Maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2017-ci il** | | | |
| Yanvar | 44,5 | - | 123,6 |
| Yanvar-fevral | 33,8 | - | 125,6 |
| Yanvar-mart | 57,6 | - | 124,7 |
| Yanvar-aprel | 99,0 | 1,8 | 132,5 |
| Yanvar-may | 118,7 | 1,6 | 124,4 |
| Yanvar-iyun | 125,1 | 1,4 | 118,8 |
| Yanvar-iyul | 119,1 | 1,6 | 119,3 |
| Yanvar-avqust | 132,4 | 1,6 | 123,7 |
| Yanvar-sentyabr | 127,7 | 1,8 | 123,7 |
| Yanvar-oktyabr | 123,6 | 1,7 | 119,1 |
| Yanvar-noyabr | 138,7 | 1,2 | 116,9 |
| Yanvar-dekabr | 142,9 | 1,2 | 114,7 |
| **2018-ci il** | | | |
| Yanvar | 71,0 | - | 32,9 |
| Yanvar-fevral | 72,5 | - | 27,3 |
